# Qeydiyyat qaydaları

**Hörmətli Abituriyent!**

**ADA Universitetinə qəbul olmağınız münasibətilə sizi təbrik edirik!**

Qəbulunuzun rəsmiləşdirilməsi üçün qeydiyyatdan keçmək tələb olunur. Qeydiyyatın tamamlanması üçün son tarix **15 avqust 2025-ci il, saat 17:00-dır**. Göstərilən tarixədək qeydiyyatdan keçməmək, təhsildən imtina kimi qiymətləndiriləcəkdir.

**Tələb olunan sənədlər**

- IB diplomun əsli
- Attestatın əsli (əgər varsa)
- Abituriyentin şəxsiyyət vəsiqəsinin surəti (hər iki üzü)
- İxtisasa uyğun tələbə müqaviləsi (2 nüsxə, hər iki valideyn və ya rəsmi qəyyum tərəfindən imzalanmış)
- 18 yaşı tamam olmayanlar üçün əlavə sənədlər:
    - Valideynlərin şəxsiyyət vəsiqələrinin surəti
    - Doğum haqqında şəhadətnamənin surəti
- Sosial statusu təsdiq edən sənəd (əgər varsa)
- Ödəniş qəbzi (ödəniş məbləğləri ilə buradan tanış olun)

**Qeydiyyatdan sonra**

Qeydiyyat bitdikdən ADA e-mail ünvanınız yaradılacaq (elektron ərizədə qeyd etdiyiniz e-mailə göndəriləcək). ADA e-malinizi mütəmadi yoxlayın.

**Avqust ayı ərzində universitet tərəfindən elan olunmuş və abituriyentin ADA e-mailinə göndərilmiş tarixlərdə yeni tələbə kartlarını götürməli və Elm və Təhsil Nazirliyinin portalında elektron qeydiyyatdan keçməlidirlər. Əks halda, abituriyentin qeydiyyatı tamamlanmır.**

**Yeni tədris ili 8 sentyabr 2025-ci ildə başlayacaq.**

**Dərslərə qeydiyyatla bağlı məlumat ADA e-mailinizə göndəriləcəkdir. Əgər göndərilməsə, registration@ada.edu.az email ünvanı ilə əlaqə saxlaya bilərsiniz.**

Tanışlıq gününün tarixi barədə məlumat ADA e-mailinizə göndəriləcək.